**“Fuji Optical” şirkətinin Azərbaycanda görmə qabiliyyətinə dəstək humanitar layihə**

28 may - 6 iyun tarixlərində Ağdam və Bərdə rayonlarında “Fuji Optical” şirkətinin Azərbaycanda qaçqın və məcburi köçkünlərin görmə qabiliyyətinin yaxşılaşdırılmasına yönəlmiş növbəti layihəsi baş tutmuşdur. Artıq sayca 17-ci humanitar missiyanı həyata keçirən şirkət həkim Akio Kanai-nin başçılığı altında 2005-ci ildən başlayaraq ölkəmizə səfərlər etmiş və ümumilikdə 70000-dən çox optik eynək hədiyyə etmişdir.

Bu dəfəki humanitar missiya zamanı 3300-dən çox qaçqınların gözləri Kanai bəy başda olmaqla missiya nümayəndələri tərəfindən müayinə edilmiş hər birinə uyğun optik eynək paylanmışdır. Layihənin icrası zamanı səfir Vatanabe Katsuya da məkanı ziyarət etmiş, optometrist-həkim Kanai Akio başda olmaqla, missiyanın digər nümayəndələrinin  qaçqın və məcburi köçün sakinlərin görmə qabiliyyətlərinin yoxlanılması və uyğun eynəklərin təqdim olunması fəaliyyətini izləmişdir.

Yaponiya ilə Azərbaycan arasında dostluq münasibətləri sadəcə hökumətlərarası münasibətlər deyil, bu cür qurum və ya şirkətlərin, habelə fərdlərin xeyirxah əməlləri sayəsində də getdikcə güclənməkdədir.  Səfirlik olaraq, “Fuji Optical” şirkətinin uzun illərdir həyata keçirdiyi görmə qabiliyyətinin yaxşılaşdırılması layihəsinə görə dərindən minnətdarlığımızı bildiririk.

Kanai Akio uzun illərdi xaricdə yaşayan qaçqın və məcburi köçkünlər üçün təşkil etdiyi göz müayinəsi fəaliyyəti qiymətləndirilərək 2006-cı ildə yaponlar arasında ilk olaraq “Nansen qaçqın mükafatı”na layiq görülmüşdür.







